

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 239 (21.900)

*16 dekabr 2017-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıt şəhərinə səfərə gedib.

Prezident İlham Əliyev həmin gün Sumqayıt Kimya Sənaye Parkında görülən işlərlə tanış olub, yeni müəssisələrin təməlqoyma və açılış mərasimlərində iştirak edib.

Dövlətimizin başçısı dekabrın 15-də Sumqayıtda Bayraq Muzeyinin, Yeni Azərbaycan Partiyası Sumqayıt Şəhər Təşkilatının inzibati binasının və "Baku Steel Company" MMC-nin Sumqayıt boruyayma zavodunun yenidənqurmadan sonra açılışlarında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıtda Dövlət Neft Şirkətinin "Azərikimya" İstehsalat Birliyinin "Kimyaçı" Mədəniyyət Sarayında və şəhərin Lüdviqsafen parkında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 15 dekabr tarixli Sərəncamı ilə xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları da vardır.

**Qurbanov Həsən Tahir oğlu – mayor**

"Hərbi xidmətlərə görə" medalı ilə,

**Quliyev Aydın Məmmədhənifə oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə,

**İbrahimov Şahid Fərəməz oğlu – daxili xidmət polkovnik-leytenantı**

3-cü dərəcəli "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Dekabrın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Yunanıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Nikolaos Kanellos ilə görüşüb.

Ali Məclisin Sədri qonağı salamlayıb, ölkəmizdə qısa müddətdir diplomatik fəaliyyət göstərməsinə baxmayaraq Naxçıvan Muxtar Respublikasına səfər etdiyinə görə Nikolaos Kanellosa təşəkkür edib. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Yunanıstan arasında təhsil və ticarət sahəsində əlaqələrin mövcud olduğunu bildirən Ali Məclisin Sədri səfərin əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Səfir Nikolaos Kanellos Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq Naxçıvana səfər etdiyini, burada olmaqdan və göstərilən səmimi münasibətdən məmnunluğunu ifadə edib. Muxtar respublikanın inkişafının onda dərin təəssürat yaratdığını qeyd edən səfir əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını vurğulayıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## 2017-ci ilin yanvar-noyabr aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2017-ci ilin yanvar-noyabr aylarında 2 milyard 357 milyon 217 min 100 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz artaraq 5227,8 manata çatmışdır.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 879 milyon 800 min manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 1,2 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində 2017-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 916 milyon 390 min manat vəsait yönəldilmişdir. Əsas kapitala yönəldilmiş investisiyanın 845 milyon 790 min manatı və ya 92,3 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2017-ci ilin yanvar-noyabr aylarında 388 milyon 627 min 400 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 4 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublika üzrə diri çəkidə 22233,4 ton ət, 79484,4 ton süd istehsal edilmiş, bir il öncəki göstərici ilə müqayisədə ət istehsalı 2,3 faiz, süd istehsalı 1,7 faiz artmışdır.

* * *

2017-ci ilin yanvar-noyabr aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 47 milyon 48 min 200 manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 1,8 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 39 milyon 127 min manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,7 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2017-ci ilin yanvar-noyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 28 milyon 38 min 700 manat məbləğində kreditlər verilmişdir. Verilmiş kreditlərin 4 milyon 191 min 900 manatı və yaxud 15 faizi qısamüddətli, 23 milyon 846 min 800 manatı və yaxud 85 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 dekabr 2017-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 63568-ə çatmışdır ki, bunun da 54890-ı və ya 86,3 faizi aktiv hesablardır. 2017-ci ilin yanvar-noyabr aylarında açılmış 24115 bank hesabının 24007-si aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 dekabr 2017-ci il tarixə 1260-a çatmışdır.

* * *

2017-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 7 milyon 73 min 800 manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 27,1 faiz çoxdur.

* * *

2017-ci ilin yanvar-noyabr aylarında muxtar respublikaya 378 min 435 nəfər turist gəlmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2,6 faiz və ya 9590 nəfər çoxdur.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2017-ci ilin yanvar-noyabr aylarında 415 milyon 628 min 200 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz artaraq 382 milyon 549 min 300 ABŞ dolları, idxalın dəyəri 3,9 faiz azalaraq 33 milyon 78 min 900 ABŞ dolları təşkil etmiş, nəticədə, xarici ticarətdə 349 milyon 470 min 400 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. 2017-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada əhalinin gəlirləri 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz artaraq 1 milyard 634 milyon 200 min 400 manat, onun hər bir nəfərə düşən məbləği isə artaraq 3624,3 manat təşkil etmişdir.

* * *

2017-ci ilin yanvar-oktyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 416,4 manat təşkil etmiş və bu göstərici 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz artmışdır.

* * *

1 noyabr 2017-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3812 nəfər artaraq 452 min 281 nəfər təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

***Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Yurdçu Kənd Mərkəzində Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə "Ulu öndər Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəyliyi" mövzusunda elmi-praktik konfrans keçirilib.***

## Elmi-praktik konfrans keçirilib



Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva mövzu ilə bağlı çıxış edərək bildirib ki, ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən, 1991-ci il dekabrın 16-da imzaladığı Fərmanla 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik və Milli Birlik Günü elan etmişdi. Həmin il həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd edilib.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə olduğu kimi, milli birliyə nail olunması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilib, Azərbaycançılıq anlayışı milli ideologiyaya çevrilib, xaricdə yaşayan həmvətənlərimizin Azərbaycanla əlaqələri genişləndirilib, milli diaspor təşkilatlarının yaradılmasına başlanılıb. Məhz bu böyük siyasətçinin uzaqgörənliyi və xalqla daha sıx birliyi sayəsində 1993-cü ildən etibarən dünyanın ayrı-ayrı ölkələrində Azərbaycan diasporunun formalaşdırılmasına diqqət artırılıb, Azərbaycan dövləti onlara hərtərəfli köməklik göstərir.

Qeyd olunub ki, dahi şəxsiyyətin təşəbbüsü ilə 2001-ci ilin noyabr ayında Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayı xarici ölkələrdə yaşayan və fəaliyyət göstərən həmyerlilərimizin ümumi məqsəd, vahid Azərbaycançılıq ideyası ətrafında birləşməsi yolunda mühüm əhəmiyyət kəsb edib. Azərbaycan Prezidentinin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması, həmin il dekabrın 27-də "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da gücləndirib.

Diqqətə çatdırılıb ki, bu gün ümummilli liderin siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev dünya azərbaycanlıları ilə əlaqələrin möhkəmləndirilməsi, güclü Azərbaycan diasporunun yaradılması məsələlərini daim diqqət mərkəzində saxlayır, bu prosesin daha da təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlərin görülməsini əsas vəzifələrdən biri kimi qarşıya qoyur.

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının Şura üzvü Tamaşa Babayeva, Yurdçu kənd ərazi ilk partiya təşkilatı idarə heyətinin üzvü Hafiz Mehdiyev, partiyanın gənc üzvü, Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin tarix müəllimi Aysel Seyidova mövzu ilə bağlı çıxış ediblər.

**Babək İSMAYILOV**

*Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi noyabr ayında istehsal və idxal olunan məhsulların keyfiyyətinə nəzarət işini, o cümlədən təsərrüfat subyektlərinin istehsal-xidmət şəraitinin standartların tələblərinə uyğunluğunu diqqətdə saxlamışdır.*

## Naxçıvanda keyfiyyət amili diqqətdə saxlanılır, standartların tələbləri qorunur



Ay ərzində təsərrüfat subyektlərinə verilmiş 186 uyğunluq sertifikatı, 2 sınaq laboratoriyasının akkreditasiya attestatı, 1 ölçmə vasitəsinin tipinin təsdiqi haqqında sertifikat və 11 əmtəə nişanlarının mühafizəsinə dair şəhadətnamə dövlət reyestrində qeydiyyata alınmışdır. Bu dövrdə yerli istehsal məhsullarının keyfiyyətinə nəzarət məqsədilə 169 qida istehsalı müəssisəsində maarifləndirmə xarakterli görüş keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür. Məhsul nümunələrinin 122 halda laboratoriya analizləri aparılmış və texniki normativ-hüquqi aktların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində 6 təsərrüfat subyektindən götürülmüş bal nümunələrinin laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilmiş, sifariş üzrə bal məhsulları sertifikatlaşdırılmışdır.

Əhalinin hepatit virus infeksiyalarından qorunması işinə nəzarət də diqqətdə saxlanmış, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə birgə 55 təsərrüfat subyektində monitorinqlər aparılmış, 165 işçinin müayinələrdən keçirilməsi təmin edilmişdir.

Həmçinin 105 bərbərxana və 38 gözəllik salonunda maarifləndirmə xarakterli monitorinq aparılmış, 113 ictimai iaşə və xidmət sahəsinə baxış olmuş, 34 bərbərxanada və 10 gözəllik salonunda aşkar olunmuş çatışmazlıqlar aradan qaldırılmışdır. Bu dövrdə uşaq bağçalarının, məktəblərin, xəstəxanaların və digər təhsil və səhiyyə müəssisələrinin yerli qida məhsulları ilə təmin edilməsi və alınan qida məhsullarının keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılmasına da diqqət artırılmış, 65 tam orta məktəb, 4 təhsil və 8 məktəbəqədər tərbiyə müəssisəsinin yeməkxanasında monitorinqlər, 6 səhiyyə müəssisəsinin yeməkxanasında yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici tədbirlər keçirilmişdir.

Payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar verilmiş tapşırıqların icrasını təmin etmək məqsədilə Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsinin nümayəndələri ilə birgə elektrik və qaz cihazlarının satışını həyata keçirən 56 təsərrüfat subyektində müşahidə xarakterli təkrar monitorinqlər aparılmış, 1 təsərrüfat subyektindən sənaye üsulu ilə hazırlanmayan 32 qaz başlığı satışdan çıxarılmışdır.

Xarici bazarlara çıxış imkanına malik məhsul istehsalına diqqətin artırılması məqsədilə komitənin müvafiq işçi qrupu müəssisələrdə olmuş və istehsal olunan məhsulların ixrac ediləcək ölkələrə uyğun markalanması, beynəlxalq idarəetmə standartlarının tətbiqi, zərurət olduqda ixrac olunan məhsulların partiyalarla sertifikatlaşdırılmasının təmin edilməsi üçün tədbirlər görülmüşdür. Həmçinin noyabr ayında muxtar respublikada iqtisadiyyat profili üzrə təhsil alan tələbələr və sahibkarlar üçün "Keyfiyyət fəlsəfəsi" mövzusunda seminarlar keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

## Muxtar respublikada təhsilin inkişafına qayğı göstərilir

Noyabr ayında təhsil sahəsində müxtəlif tədbirlər həyata keçirilib. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq Heydər Əliyev Muzeyi, Hüseyn Cavidin ev-muzeyi və Dövlət Bayrağı Muzeyi ilə ümumtəhsil məktəbləri arasında interaktiv dərs keçilmiş, şagirdlərə ətraflı məlumatlar verilmişdir. Həmçinin Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində, Naxçıvan Dövlət Universitetində, "Naxçıvan" Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda, eləcə də orta ixtisas təhsili müəssisələrində çalışan elmi dərəcəli müəllimlər tərəfindən noyabr ayı ərzində ümumtəhsil məktəblərində 215 saat dərs tədris edilib.

Noyabr ayında Şərur, Babək, Şahbuz və Kəngərli rayonlarının ümumtəhsil məktəblərində kimya, biologiya, fizika ixtisasları üzrə dərs deyən fənn müəllimlərinin Naxçıvan Dövlət Universitetində ixtisasartırma kurslarında iştirakı təmin edilib. Kurslarda, ümumilikdə, 71 müəllim iştirak edib. Bəhs edilən dövrdə test-sınaq imtahanlarının keçirilməsinə də xüsusi diqqət yetirilib, ümumtəhsil məktəblərinin II-III, IX-XI sinif şagirdləri üçün mərkəzləşmiş qaydada test-sınaq imtahanları keçirilib.

Ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin gələcəkdə ali məktəblərə qəbul olan zaman düzgün seçim etmələri üçün ali və orta ixtisas müəssisələrinə "açıq qapı" ekskursiyalarının təşkil olunması məqsədilə qrafik hazırlanıb. Bu qrafikə uyğun olaraq Naxçıvan şəhərindəki ümumtəhsil məktəblərinin şagirdləri Naxçıvan Dövlət Texniki Kollecində və ali təhsil müəssisələrində ekskursiyada olublar.

Noyabr ayında gənclərin müxtəlif peşə kurslarına istiqamətləndirilməsi sahəsində də bir sıra işlər görülüb. Peşə məktəblərində açılan kompüter istifadəçisi, elektrik avadanlıqlarına xidmət və təmiri üzrə elektrik montyoru, "B" kateqoriyalı sürücülük, qaz çilingəri, qazanxana maşinisti, traktorçu-maşinist, gözətçi kurslarına, ümumilikdə, 245 müdavim cəlb edilib. Eyni zamanda qeyd edilən ixtisaslar üzrə 292 müdavim məzun olub.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

## Qış mövsümündə elektrik enerjisi ilə təminatda problemlər olmayacaq

***Qış mövsümündə Naxçıvan şəhərinin sakinləri dayanıqlı elektrik enerjisi ilə təmin ediləcəklər. Qarşıda duran vəzifələrin icrası çərçivəsində qış mövsümünü mütəşəkkil başa çatdırmaq üçün elektrik stansiyalarında, yüksək və alçaqgərginlikli elektrik verilişi xətlərində, müxtəlifgərginlikli transformator yarımstansiyalarında qrafikə uyğun əsaslı və cari təmir işləri aparılıb.***

Şəhər Elektrik Şəbəkəsindən aldığımız məlumata görə, əhalinin və təsərrüfat subyektlərinin elektrik enerjisinə olan tələbatının ödənilməsi, eləcə də digər infrastruktur sahələrinin qış mövsümündə normal fəaliyyət göstərməsi üçün hazırlıq işlərinə xüsusi diqqət yetirilir, lazımi mal-material ehtiyatı yaradılması diqqət mərkəzində saxlanılır.

Məlumatda o da bildirilir ki, ötən müddətdə qış mövsümünə hazırlıqla əlaqədar mövcud transformatorların və yarımstansiyaların texniki baxışdan keçirilməsi təmin edilib, istismara yararsız, standartlara uyğun gəlməyən, bir çox hallarda qəzalara səbəb olan elektrik avadanlıq və xətlərinin yenilənməsi diqqət mərkəzində saxlanılıb. Bundan başqa, Naxçıvan şəhərində yerüstü elektrik xətlərinin yeraltı kabellərlə əvəz olunması və smartkarttipli sayğacların quraşdırılması davam etdirilib, enerji israfçılığına yol verilməyib. Qazanxanalara xidmət edən yarımstansiyalarda əsaslı təmir işləri aparılıb, qəza vəziyyəti törədə biləcək elektrik avadanlıqları yeniləri ilə əvəz edilib. Naxçıvan şəhərində əhali abonentlərinin ev və mənzillərində ön ödənişli smartkarttipli sayğacların qoyulması işləri davam etdirilir. Son on bir ay ərzində 5769 ədəd belə sayğac quraşdırılaraq bu tip sayğacların sayı 20 min 542-yə çatdırılıb. Muxtar respublika paytaxtında elektrik enerjisindən sayğacdankənar istifadə edilməsinin qarşısının alınması üçün mütəmadi reydlər keçirilir, əhali arasında maarifləndirici tədbirlər aparılır. Elektrik enerjisindən səmərəli istifadə edilməsinin zəruriliyi, elektrik xətlərində baş verə biləcək xoşagəlməz hadisələrin yaranmaması üçün əhalinin elektrik enerjisindən istifadə zamanı tələb olunan texniki göstəricilərə əməl etmələrinin vacibliyi izah olunur. Həyata keçirilmiş tədbirlər belə deməyə əsas verir ki, Naxçıvan şəhərində qış mövsümündə elektrik enerjisi ilə təchizatda problemlər yaranmayacaq.

Qeyd edək ki, son illərdə Naxçıvan Muxtar Respublikasında yeni elektrik stansiyaları tikilib istifadəyə verilib, yarımstansiyaların, elektrik verilişi şəbəkələrinin davamlı fəaliyyəti təmin olunub. Bu sahədə görülən işlərin nəticəsidir ki, elektrik enerjisinə tələbat daxili istehsal hesabına ödənilir. Əldə edilən nəticələr muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlərin bəhrəsidir.

**Xəbərlər şöbəsi**



*Ölkəmizdə əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və insanların yeni həyat standartlarına uyğunlaşdırılması dövlətin qarşısında duran əsas məsələlərdəndir. Respublikamızda həyata keçirilən sosial siyasətin mühüm bir istiqaməti kimi özünü doğrultmuş bu məsələnin uğurlu həlli yollarından biri isə mənzillərin ipoteka yolu ilə vətəndaşlara verilməsidir.*

## Əhalinin mənzilə olan tələbatının ödənilməsində ipoteka kreditləşməsi mühüm rol oynayır

İpoteka kreditlərinin verilməsi qaydaları, şərtləri və ipotekanın əhəmiyyətliliyi haqqında əvvəlcə onu qeyd edək ki, muxtar respublikamızda əhalinin uzunmüddətli ipoteka kreditləşməsi vasitəsilə yaşayış sahəsi ilə təmin edilməsi mexanizmlərini yaratmaq, ipoteka kreditləşməsinə maliyyə resurslarının cəlb olunmasına kömək göstərilməsi ilə bağlı işləri yerinə yetirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 7 noyabr tarixli Fərmanı ilə "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Kreditləşmə prosesini həmin cəmiyyət tərəfindən təyin edilmiş müvəkkil banklar həyata keçirir. Cəmiyyətin fəaliyyəti ölkəmizdə qüvvədə olan "İpoteka haqqında" Qanun, Mülki Məcəllə, habelə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 7 noyabr tarixli Fərmanı ilə təsdiq olunmuş Qaydalar və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi normativ-hüquqi aktlar əsasında tənzimlənir. Mənzil kreditlərinin verilməsində ipotekanın iki fərqli mexanizmi vardır. Bunlardan biri ümumi, digəri isə güzəştli ipoteka kreditləridir. Güzəştli ipoteka, əsasən, aşağı faizlə (4 faiz) şəhid ailəsi üzvlərinə, milli qəhrəmanın özü və ailə üzvlərinə, məcburi köçkün və ona bərabər tutulmuş şəxslərə, ən azı 3 il dövlət qulluğunda çalışan, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçənlərə, ən azı 5 il dövlət ümumtəhsil məktəblərində müəllim işləyən şəxslərə, fəlsəfə və elmlər doktoru elmi dərəcəsi olanlara, idman sahəsində xüsusi xidmətləri olan şəxslərə, ən azı 3 il hərbi xidmətdə olan, həmçinin ehtiyata və istefaya buraxılmış Naxçıvan Muxtar Respublikasında yaşayan hərbi qulluqçulara, ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olan şəxslərə, ən azı 3 il elmi vəzifədə işləyən elmi işçilərə verilir. Güzəştli ipoteka kreditindən istifadə hüququ olan şəxslər bu hüquqdan yalnız bir dəfə istifadə edə bilərlər.

Hazırda əhalinin əksəriyyəti mənzil ipotekasını, əsasən, güzəştli və adi qaydalar əsasında alırlar. Məsələn, adi ipoteka kreditləri 8 faizlə 25 il müddətinə, güzəştli qaydada isə 4 faizlə 30 il müddətə verilir. Adi qaydada ipoteka krediti üzrə mənzilin 15, güzəştli qaydada isə mənzilin dəyərinin 10 faizi həcmində ilkin ödəniş tələb olunur. İpotekanın götürülməsində tələb olunan ilkin ödənişə gəldikdə isə bu borcalanın yaşayış sahəsinin alınmasına yönəldilən şəxsi vəsaitidir. Yəni borcalan aldığı yaşayış sahəsinin qiymətinin ipoteka krediti hesabına ödənilməyən hissəsini öz şəxsi vəsaiti hesabına ödəməlidir. İpoteka kreditinin verilməsi şərtlərinə əsasən kredit üzrə ödəniləcək aylıq məbləğ kredit alanın aylıq gəlirinin 70 faizindən çox olduqda, ipoteka kreditinin verilməsindən imtina olunur. İpoteka krediti almaq üçün minimal əməkhaqqına tələb və yaş məhdudiyyətinə gəldikdə isə qaydalara əsasən kredit götürənin yaşı pensiya yaşı həddindən çox olmamalıdır.

Nəhayət, borcalan vəfat etdikdən sonra yaranan hüquqi vəzifələr barədə isə qeyd edək ki, əgər vərəsəlik qaydasında həmin mənzil məhkəmə qaydasında başqa şəxsə keçdikdə həmin şəxs vəfat etmiş (borcalanın) şəxsin hüquqlarını daşıyır və ipoteka saxlayan (ipoteka krediti verən) qarşısında onun vəzifələrini icra edir. Bütün bunlar "İpoteka haqqında" Qanunun 30.2-ci maddəsində əksini tapıb. Qanunun həmin maddəsinin tələblərinə görə ipoteka predmetinin özgəninkiləşdirilməsi, yaxud hüquqi şəxsin yenidən təşkili nəticəsində və ya vərəsəlik qaydasında həmin əşya başqa şəxsə keçdikdə ipoteka qüvvədə qalır və həmin şəxs ipoteka müqaviləsi üzrə ilkin ipoteka qoyanın bütün vəzifələrini, o cümlədən ilkin ipoteka qoyan tərəfindən lazımınca icra edilməmiş vəzifələri daşıyır. Həmin məsələnin həlli Mülki Məcəllənin 1306.1 maddəsində də göstərilmişdir.

Qeyd edək ki, ipoteka kreditləri yalnız Naxçıvan şəhərində deyil, muxtar respublikanın digər rayon və kənd əraziləri üzrə də verilir. Bu kreditlərin maksimum məbləği Naxçıvan şəhəri üçün 60 min, rayon əraziləri üçün 35 min, kənd yaşayış yerləri üçün isə 15 min manat təşkil edir. "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti 2016-cı ilin son iki ayı ərzində muxtar respublikada 951 min 640 manat məbləğində adi və güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsini həyata keçirmişdir. Həmin ildə 20 ailə öz mənzilinin sahibi olmuş, onlardan 13 ailə krediti güzəştli (4 faizlə), 7-si isə adi (8 faizlə) şərtlərlə əldə etmişdir.

1 dekabr 2017-ci il tarixədək müvəkkil banklar tərəfindən əhaliyə 2 milyon 708 min 904 manat məbləğində ipoteka krediti verilmiş, vəsaitlər cəmiyyət tərəfindən maliyyələşdirilmişdir. Bu vəsaitin 1 milyon 98 min 173 manatını güzəştli, 1 milyon 610 min 731 manatını isə adi ipoteka kreditləri təşkil edib. "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti yarandığı gündən indiyədək 65 ailəni mənzillə təmin etmiş, bunlardan 42 ailə adi ipoteka kreditindən, 23 ailə isə güzəştli ipoteka kreditindən yararlanmışdır.

Göstərilənlər onu deməyə əsas verir ki, muxtar respublikamızda həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin nəticəsi olaraq, "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti də, ümumilikdə, gənc ailələrin mənzillə təmin olunması istiqamətində gələcəkdə müvəkkil bankların maliyyələşməsini və muxtar respublikada ailələrin mənzil təminatının yaxşılaşdırılması istiqamətində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə çalışacaqdır.

**Aidə HƏSƏNLİ**
***"Naxçıvan İpoteka Fondu" ASC-nin baş mütəxəssisi***



*18 dekabr Beynəlxalq Miqrant Günüdür*

# Muxtar respublikada miqrasiya tədbirləri diqqətdə saxlanılır

***Hər il dekabrın 18-i bütün dünyada “Beynəlxalq Miqrant Günü” kimi qeyd olunur.***

Miqrasiya və miqrantlar mövzusu müasir dünyada geniş müzakirələrə səbəb olan aktual məsələlərdəndir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra miqrasiya problemi dövlət siyasətinin və milli inkişafın strateji hədəflərindən birini təşkil edən ən mühüm sahəyə çevrilmişdir. Bu gün ölkəmizdə Beynəlxalq Miqrant Gününün qeyd olunması da dövlətin miqrasiya proseslərini tolerantlıq zəminində, milli və irqi ayrı-seçkilik olmadan tənzimlənməsində maraqlı olduğunu təzahür etdirir.

Son illər baş verən müxtəlif siyasi və iqtisadi proseslər miqrasiyanın, xüsusilə sosial-iqtisadi miqrasiyanın genişlənməsinə təsirsiz ötüşməmişdir. Hazırda mövcud miqrantların böyük əksəriyyətini əməkçi miqrantlar təşkil edir ki, bu da onlarla bağlı problemlərə xüsusi diqqət yetirilməsini və bununla bağlı bir çox məsələlərdə dövlətlər tərəfindən vahid yanaşmanın tətbiq olunmasını zəruri edir.

Azərbaycanın miqrasiya sahəsindəki siyasəti ölkənin sosial-iqtisadi maraqlarının qorunması ilə yanaşı, miqrantların, o cümlədən də əməkçi miqrantların həyat və fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına, onların hüquqlarının müdafiəsinə yönəldilmişdir. Bu gün ölkəmizdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının həyata keçirilməsi normativ-hüquqi aktlarla tənzimlənir. Hazırda ölkəmizdə əmək miqrasiyası prosesləri sürətlə genişlənmiş və Azərbaycan təyinat ölkəsinə çevrilmişdir. Ölkəmizə gələn miqrantların sayının artmasının başlıca səbəbi son illər respublikamızda sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin yaradılması, demokratik institutların genişlənməsi, vətəndaş cəmiyyətinin bərqərar olması, ölkə iqtisadiyyatının sürətli inkişafı və əhalinin yaşayış səviyyəsinin yüksəlməsidir. İnkişaf templərinə görə ölkəmiz bu gün dünya dövlətləri arasında ön sıralardadır.

Naxçıvan Muxtar Respublikasında da miqrasiya prosesləri qanunvericiliyin tələblərinə uyğun tənzimlənir, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir. Son illər muxtar respublikada həyata keçirilən uğurlu islahatlar nəticəsində yaşayış səviyyəsi yüksəlmiş, əlverişli coğrafi-strateji mövqeyi, mühüm ticarət qovşaqlarının üzərində yerləşməsi Naxçıvanı əcnəbilər üçün cəlbedici yerə çevirmişdir. Ona görə də miqrasiya sahəsində dövlət nəzarətinin həyata keçirilməsi, qarşıya qoyulan vəzifələrin vaxtında və düzgün yerinə yetirilməsi diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşları üçün müasir standartlara cavab verən yeni inzibati binanın istifadəyə verilməsi bu sahədə görülən işlərin davamıdır.

Muxtar respublikada insan və vətəndaş hüquq və azadlıqlarının təminatı diqqət mərkəzində saxlanılır, miqrasiya sahəsində qarşıda duran məsələlər uğurla həll olunur, miqrasiya prosesləri qanunvericiliyin tələblərinə uyğun tənzimlənir, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir. Bütün bunları nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“Qanuni əsaslarla ölkəyə gələn hər bir əcnəbi nəzərdə tutulmuş bütün hüquq və azadlıqlardan istifadə etməlidir. Bunun üçün hər cür şərait yaradılmış və hüquqi baza formalaşdırılmışdır”.***

Fəaliyyətini qeyd olunan tapşırıqlar əsasında quran Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti səlahiyyətləri çərçivəsində miqrasiya proseslərinin təhlili, proqnozlaşdırılması və monitorinqinin təşkil edilməsi, miqrasiya sahəsində vahid informasiya sisteminin yaradılması və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini diqqətdə saxlayır. Xidmətdə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti və daimi yaşamaq üçün icazələrin, habelə ölkədə olma müddətinin uzadılması, həmçinin ölkədə haqqıödənilən əmək fəaliyyətini həyata keçirmək üçün iş icazələrinin və sığınacaq axtaran şəxslərə qaçqın statusunun verilməsi sahəsində səmərəli iş mexanizmi yaradılmışdır. Bundan əlavə, Naxçıvan Muxtar Respublikasında bütün miqrantların hüquq və azadlıqlarının qorunması və təminatına daim diqqətlə yanaşılır və bu istiqamətdə görülən işlər müasir standartlar səviyyəsinə çatdırılıb. Miqrantların Saxlanılması Mərkəzinin istifadəyə verilməsi bu işlərin əyani sübutudur.



Xidmətin saxlama mərkəzində yaşayış yeri olmayan əcnəbilər, qaçqın statusu almaq istəyənlər və digər miqrantlar yerləşdirilir. Həmçinin qanunvericiliyin tələblərini pozmuş, maddi vəsaiti və yaşayış yeri olmayan miqrantlar da mərkəzdə müvəqqəti qalmaq üçün könüllü müraciət edə bilərlər. Miqrantların saxlanıldığı otaqların şəraiti yüksək səviyyədədir. Saxlanma müddəti ərzində onlar qida və geyimlə təmin olunurlar. Bununla yanaşı, onların asudə vaxtlarının səmərəli təşkili üçün də şərait yaradılıb.

Müasir dövrdə dünyada baş verən müxtəlif siyasi və iqtisadi proseslər sosial-iqtisadi miqrasiyanın genişlənməsində təsirli rol oynamaqdadır. Miqrantlar əhalinin kifayət qədər dinamik və mobil qrupu olması səbəbindən onların sayı və gəlmə səbəbləri ilə yanaşı, həm də tərkibinə nəzər yetirilməsi və problemlərinə həssas yanaşma zəruridir. Belə ki, miqrantlar arasında müxtəlif yaş və sosial qruplara aid olan şəxslərin, eyni zamanda müxtəlif dillərə, dinlərə, millətlərə və fərqli mədəniyyətə malik şəxslərin olması səbəbindən onların bütün zəruri ehtiyaclarının ən yaxşı formada həyata keçirilməsi diqqətdə saxlanılır.

Ölkəmizdə miqrantların rahatlığının təmin edilməsi məqsədilə sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələrində əcnəbilərin olduğu yer üzrə qeydiyyatı Vahid Miqrasiya Məlumat Sistemi vasitəsilə sadələşdirilmiş formada aparılır. Bunun nəticəsində də muxtar respublikaya daxil olan əcnəbilər uzaq məsafə qət etmədən Dövlət Miqrasiya Xidmətinə müraciət etmək imkanı əldə edirlər.

Dövlət Miqrasiya Xidməti vətəndaşların məlumatlandırılması və maarifləndirilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirir. Belə ki, ictimaiyyətin miqrasiya sahəsində maarifləndirilməsi məqsədilə yerli televiziya kanalında və Naxçıvan şəhərinin ictimai yerlərində yerləşdirilən monitorlarda mütəmadi olaraq yenilənən maarifləndirici videoçarxların nümayişi təşkil edilir, sərhəd-keçid məntəqələrində yerləşdirilmiş elektron məlumat köşkləri üzərindən müvəqqəti və daimi yaşamaq, olduğu yer üzrə qeydiyyata alınma, haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi və müddətinin uzadılması ilə bağlı məlumatlar 3 dildə (Azərbaycan, rus və ingilis dillərində) yazılı və səslə muxtar respublikaya daxil olan xarici ölkə vətəndaşlarına təqdim olunur. Həmçinin əcnəbilərin miqrasiya qanunvericiliyi sahəsində hüquqi məlumatlar əldə etməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəsmi internet səhifəsi fəaliyyət göstərir. Saytın Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərməsi dünyanın istənilən yerindən hər bir əcnəbinin ondan rahatlıqla istifadə etməsinə imkan verir.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti əcnəbilərə “Elektron hökumət portalı” üzərindən 9 sahə üzrə xidmət göstərir. Eyni zamanda bu xidmət növləri üzrə dövlət rüsumlarının internet üzərindən ödənilməsi də onlayn həyata keçirilir. Dövlət Miqrasiya Xidmətinin “202 – Miqrasiya Məlumat Mərkəzi”nin fəaliyyəti də miqrasiya sahəsi üzrə qanunvericilik və sənədlərin icrası ilə bağlı informasiyaları əldə etmək hüququnun təmini baxımından mühüm əhəmiyyətə malikdir.

Miqrasiya siyasətinin həyata keçirilməsində əsas məsələlərdən biri də burada yaşayan əcnəbilərin Azərbaycan dilinin, tarixinin, mədəniyyətinin, onların hüquq və vəzifələri ilə bağlı qanunvericiliyin öyrənilməsinin təmin edilməsidir. Bu məsələnin əhəmiyyəti nəzərə alınaraq muxtar respublikada müvəqqəti yaşayan və əmək fəaliyyəti ilə məşğul olan əcnəbilər üçün muxtar respublikanın tarixi, mədəniyyəti, incəsənəti, turizm imkanları haqqında müxtəlif maarifləndirici tədbirlər və muzeylərə ekskursiyalar təşkil olunur.

Muxtar respublikada miqrasiyanın idarə edilməsində beynəlxalq təcrübənin öyrənilməsi və bu sahədə kadr potensialının formalaşdırılması daim diqqət mərkəzində saxlanılır. Belə ki, xidmətin əməkdaşları mütəmadi olaraq ölkə daxilində və xarici ölkələrdə təşkil olunan təlimlərdə iştirak edir, bu sahədə yüksək bilik və təcrübəyə yiyələnir. Bu da xidmət əməkdaşları tərəfindən öyrənilən təcrübənin bölüşdürülməsi və öz xidməti fəaliyyətlərində tətbiqi baxımından çox mühüm əhəmiyyət kəsb edir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin kollektivi bundan sonra da qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcək, miqrasiya proseslərini qanunvericiliyin tələblərinə uyğun tənzimləyəcəkdir.***

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***

# Rəsm sərgisinin qalibləri mükafatlandırılıb

***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda muxtar respublikanın yaradıcılıq mərkəzlərinin rəsm dərnəklərində ustad dərslərində iştirak etmiş şagirdlərin çəkdikləri rəsmlərdən ibarət sərgi təşkil olunub.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Təhsil, Mədəniyyət və Turizm nazirliklərinin və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, bu gün ölkəmizdə, o cümlədən muxtar respublikamızda həyata keçirilən dövlət uşaq siyasəti uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin tədbirlər planına əsasən təşkil olunan belə sərgilər də bu istiqamətdə həyata keçirilən tədbirlərin davamıdır.



Ülviyyə Həmzəyeva onu da qeyd edib ki, ustad dərsləri rəsm dərnəyinin üzvlərinə muxtar respublikada fəaliyyət göstərən uşaq yaradıcılıq mərkəzlərindəki rəsm dərnəklərində keçirilib. Bu gün təşkil olunan sərgi ustad dərslərində iştirak edən şagirdlərin rəsmləridir. Rəsm dərnəklərində təşkil olunan dərslər birliyin üzvü olan rəssamlar tərəfindən keçilib. Keçilən dərslərin əsas məqsədi istedadlı və qabiliyyətli uşaqların üzə çıxarılması və onların gələcək fəaliyyətlərində uğur qazanmasına köməklik göstərməkdir.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayevin, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Rasim Rüstəmovun, Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əkbər Novruzovun çıxışları olub. Çıxışlarda bildirilib ki, bu gün uşaqlar milli və mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunur, təhsil, idman, mədəniyyət, incəsənət və digər sahələrdə uğurlar əldə edirlər.

Çıxış edənlər sərgidə rəsmləri nümayiş olunan uşaqlara uğurlar arzulayıblar. Sonra rəsm sərgisində fərqlənən uşaqlara diplom və hədiyyələr təqdim olunub.

Qeyd edək ki, 40 uşağın 139 rəsminin nümayiş etdirildiyi sərgidə təbiət mənzərələrindən tutmuş vətənpərvərlik mövzusuna qədər bir sıra maraqlı rəsmlər yer alıb.

Sonda müsabiqə iştirakçılarının rəsmlərindən ibarət sərgiyə baxış olub.

**Gülcamal TAHİROVA**

# Yeni kitabların təqdimatı keçirilib

Naxçıvan Dövlət Universitetində Təsviri incəsənət kafedrasının müdiri, Xalq rəssamı, professor Hüseynqulu Əliyev və həmin kafedranın müəllimi Laman Məmmədovanın birgə ərsəyə gətirdikləri “Heykəltəraşlıq və rəngkarlıqda insan gözəlliyinin təcəssümü” və “Təsviri sənət nəzəriyyəsi” adlı kitabların təqdimetmə mərasimi olub.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov hər iki kitabın elmi əhəmiyyətini qeyd edib.

Vurğulanıb ki, Naxçıvanda rəssamlığa göstərilən diqqət və qayğı nəticəsində artıq muxtar respublikada peşəkar rəssamlar nəsli yetişib.

Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyeva, Təsviri incəsənət kafedrasının müəllimləri Əlövsət Allahverdiyev və Elnurə Orucova çıxış ediblər. Qeyd olunub ki, hər iki dərs vəsaiti bakalavr, magistr, aspirant və tədqiqatçılar, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Universitetin son illərdə qazandığı nailiyyətlər təhsilimizə göstərilən yüksək diqqət və qayğının bəhrəsidir, – deyən müəlliflər universitet mühitində yaradıcı insanların elmi-pedaqoji fəaliyyəti üçün göstərilən dövlət dəstəyinə görə minnətdar olduqlarını bildiriblər.

**Səadət ƏLİYEVA**

# Naxçıvan iqtisadi regionun inkişafında maliyyə və bank sisteminin rolu

***“Naxçıvan” Universitetinin İdarəetmə kafedrasının və Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən konfransı ali təhsil ocağının tərbiyə işləri üzrə prorektoru Əli Yusifov açıb.***

Konfransda Azər-Türk Bankın əməkdaşı Murad Sevdimalıyev “Banklarda risklərin idarə edilməsi” mövzusunda məruzə edərək bildirib ki, son illərdə banklar tərəfindən iqtisadiyyata kredit qoyuluşlarının və əhalidən cəlb olunan əmanətlərin artması tendensiyası davam edib. Bu da bank sisteminin iqtisadiyyatda, xüsusən də sahibkarların maliyyə resurslarına olan tələbatının ödənilməsində rolunu yüksəldib. Belə ki, son 10 ildə real iqtisadi artım 4 dəfədən çox olub, strateji valyuta ehtiyatları 42, bank kreditləri 25, əhalinin əmanətləri isə 32 dəfə çoxalıb.

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin əməkdaşı Məmmədnağı Əkbərov “Heydər Əliyevin Naxçıvan iqtisadiyyatının və maliyyə sisteminin inkişafında rolu” mövzusunda çıxış edib. Bildirib ki, ümummilli lider Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra Azərbaycanın digər bölgələri kimi, Naxçıvan Muxtar Respublikası da özünün əsl inkişaf mərhələsinə qədəm qoyub.

Sonra İdarəetmə fakültəsinin tələbəsi Şəhruz Yusubzadənin “Bankların qiymətli kağızlar bazarında fəaliyyət növləri” mövzusunda çıxışı dinlənilib.

**Nuray ƏSGƏROVA**

# Yurda dönüş

*(Hekayə)*

– Bu da Naxçıvan! Nə tez yetişdik, – deyə yerə enməkdə olan təyyarədə Kazım qeyri-iradi dilləndi. Sevinc və həyəcanı bir-birinə qarışdı. Zarafat deyildi. Bir azdan 1994-cü ildən ayrıldığı doğma yurda ayaq qoyacaqdı. Ovaxtkı Naxçıvanı xəyal süzgəcindən keçirtdi. Doğulduğu, böyüyüb yaşa dolduğu ucqar Eyvazlını da gözləri önünə gətirdi... İndi, görəsən, nə vəziyyətdədir kəndimiz? – dedi.

Qəlbində doğulan bu sual bərk qorxutdu Kazımı. Axı payız, qış fəsillərində yolları qıfıla düşən Eyvazlıya necə gedəcəkdi? Hansı çətinliklərlə üzləşəcəkdi? Bir də axı, görəsən, kənddə heç qalan varmı? O dövrün üst-üstə qalanmış çörək, qaz, işıq problemləri, əmin-amanlığın olmaması adamların bir qismini baş götürüb qaçmağa məcbur etmişdi. Düzdür, 20 ildən artıqdır ki, yaşadığı Uzaq Şərqdə Naxçıvan haqqında azdan-çoxdan eşitməmiş, bilməmiş də deyildi Kazım. Di gəl ki, eşitdikləri ona inandırıcı gəlmirdi.

Kazım orada əldən-ayaqdan uzaq bir kənddə yaşayırdı. Varlı bir ailənin ev, təsərrüfat işlərini aparırdı. Alababat dolanışıqları olsun deyə arvad-uşağını da özü ilə bərabər işlədirdi. Onun bu illərdə yadına düşmədiyi doğma vətəninə birdən-birə baş çəkmək fikri də göydəndüşmə olmamışdı. Özü demişkən, xozeyini ona ürək qızdırıb demişdi ki, biznesimi genişləndirirəm. Mal-heyvanım da xeyli artıb. Yaxın şəhərlərin birində dükan-bazar açmaq istəyirəm. Bilirəm ki, siz azərbaycanlılar halal, düz insanlarsız, etibarlısınız.

Kazıma böyük inamı vardı xozeyinin. Demişdi ki, get, ən azı 8-10 nəfər iş bacaran, qolunun qüvvəsi olan cavan oğlan tap gətir. Yaxşı qazanacaqlar.

Kazım "Həm ziyarət, həm ticarət" məsələni yadına salıb xozeyininə razılığını bildirdi. Və yola çıxdı. Neçə qatar, neçə təyyarə dəyişib Bakıya, oradan da Naxçıvana uçdu. Kazım yeganə yükünü – kəmərli çantasını çiynindən aşırıb axına qoşuldu. Qapıdan çıxıb addımını trapa qoycaq, ılıq, ürəyinə düşən xoş rayihəli hava üz-gözünü oxşadı. İllərdən bəri həsrət qaldığı yurd havasını acgözlüklə ciyərlərinə çəkdi. Özündə qəribə bir yüngüllük hiss etdi.

– Oxqay, nə gözəldir. Qurban olum sənə, Vətən, – deyə ürəyindən keçirdi, ətrafa nəzər saldı:

– Bıy, bura həmin ayraportdurmu? Gör necə gözəlləşib. Köhnədən əsər-əlamət belə, qalmayıb...

Sarı rəngli bir maşına əyləşdi. Səliqəli forma geyinmiş şirinsifət sürücü ilə ünsiyyət qurmağa çətinlik çəkmədi:

– Ay qardaş, ay oğul, bura Naxçıvandır?.. Deyirəm birdən səhv gələrəm ee?

– Elə Naxçıvandır ki, gəlmisən. Görünür, çoxdandır bu yerlərə ayağın dəyməyib, ələmi?

– Elədir, elədir, – deyə Kazım dərindən ah çəkdi.

– Hələ sən nə görmüsən, ay kişi? Bir-iki gün gəzib dolanarsan, onda hər şey sənə agah olar. İndisə, yolçu yolunda gərək.

Sarı taksi hava limanı ərazisini arxada buraxıb üzü güncıxana yol aldı. Xeyli məsafə qət etdikdən sonra sola buruldu. Qəlbi dağların ətəyində yerləşən Eyvazlıya üz tütdü. Yolboyu Kazım sürücünü dinc qoymurdu. Cavan sürücü Ramin saya gəlməz suallardan nə yorulur, nə bezirdi. Əksinə, bunu özünün vəzifə borcu sanır, qürur hissi keçirirdi. Ona görə ki, indi artıq hər tərəfi cənnəti xatırladan belə bir gözəl torpaqda, əsrarəngiz diyarda yaşayır. Dilinə gətirməsə də, qəlbində Vətəninə biganə olan qonağını qınadı, halına acıdı.

– Ay Ramin, inan mənə, keçdiyimiz bu geniş, şüşətək asfalt yollara oranın hələm-hələm şəhərlərində belə, rast gələ bilməzsən, – deyə Kazım ani sükutu sındırdı.

– Hələ Naxçıvanın kəndləri... Gör necə böyüyüb müasirləşiblər. Hamısında 2-3 mərtəbəli gözəl-gözəl binalar ucalıb. Elə hesab edirdin 22-23 il əvvəllərdə yaşadığın Naxçıvandı?





– Düzünə qalsa... hə... sən demə, yanılmışam... Bir də ki, mən dünyanın o başında necə bilməliydim axı... Az qına məni. Bizim sağ tərəfimizdəki iki-üç mərtəbəli binalar nədi elə, yəni nədən ötrüdür?

– Biri məktəbdi, biri kənd mərkəzidi, o biri xəstəxanadı, onlardan oyankı xidmət obyektləridi... Yenə deyim? Bax onların ətrafındakılar da son vaxtlarda ucaldılmış fərdi yaşayış evləridir. Daha bizim yerlərdə kəndlə şəhərin fərqi götürülənib ee. Tanımazsan kəndlərimizi. Xəbərin olsun ki, öz kəndinizdən də köhnə bir nişanə qalmayıb. Hər nə var təzələnib.

– Yaxşı, bəs işığı, qazı necə? Elektrik yenə uzun fasilələrlə verilir?.. Hələ çörək?! O vaxt az qala aclıq bürümüşdü məmləkəti. Un, çörək qəhətə çıxmışdı.

– O dediklərin, elə o vaxtlarda da qaldı. Tarixə dönüb. Acı xatirələr kimi nağıllaşıb. Nə işıq, nə fasilə?! İndi Naxçıvan istehsal etdiyi elektrik işığını xaricə satır. Kəndlərimiz başdan-başa qazlaşdırılıb. Sən nə danışırsan? O ki qaldı una, çörəyə... İndi on illərə bəs edəcək arzaq ehtiyatımız vardır. Hər kəs pay torpağını əkir, becərir, məhsulunu da ha çoxdur dəyirman, üyüdüb qoyur başının altına. Artığını da satıb pul edir. Kimdir çörək dərdi çəkən...

– Sən lap nağıl söyləyirsən, ay Ramin.

– Əslində, elə nağıldır. Amma çox çəkməz burdakı bütün nağılları öz gözlərinlə görərsən.

Kazım bir anlıq dilini dinc qoyub fikrə daldı. Sonra:

– Səni də yoruram, bağışla. Ancaq bir sual da verəcəyəm: – sürdüyün bu gözəl maşın yapon istehsalıdır, yoxsa Koreya?

– Ay əzizim, bu, xarici avtomaşın deyil. Öz istehsalımızdır. Naxçıvanda buraxılır.

– Ramin, deyəsən, qərib bilib zarafat edirsən mənimlə?..

– Canım, nə zarafat, nə zad. Diqqət yetirsən, yollarımız doludur "NAZ Lifan" markalı maşınlarla. Keyfiyyətinə söz ola bilməz. Baxın görün nəyi əskikdir yapon "Nissan"ından. Xəbərin olsun ki, artıq Naxçıvanda, rayonlarımızda neçə-neçə adda sənaye məhsulları hazırlanır. Nə qədər iş yerləri açılıb. İşləyənə minnət. Artıq Naxçıvanın brend malları adladı.

"NAZ Lifan" bir-birindən abad, gözəl yaşayış məntəqələrini geridə qoyub üzüyuxarı qalxırdı. Heyrətamiz bir maraqla sağını, solunu gözdən qaçırmaq istəməyən Kazım yenə sakit dura bilmədi:

– Ramin, bəs bu dağın ətəyindəki tikili nəmənədi?

– Kazım, heç bilirsən biz hazırda haradan keçirik? Düz Əlincə qalasının ətəyindən. Yaddan çıxarmış olmazsan şöhrətli qalanı. O gördüyün bina da Əlincəqala muzeyidir. Elə son illərdə Əlincənin zirvəsində nə qədər möhtəşəm işlər aparıldı. İndi dünyanın hər yerindən buraya axınaxın ziyarətçilər gəlir.

– Nə yaxşı, nə yaxşı. Hələ eşitmişəm Əshabi-Kəhfə də əsaslı əl gəzdiriblər. Böyük ziyarətgaha çevrilib.

– Əşşi.. nə Əshabi-Kəhf, nə Gülüstan... Demək olar, muxtar respublikamızda inşaatçı əli dəymәmiş tarixi abidələr, dini ziyarətgahlar qalmayıb. Hamısını da necə var, olduğu kimi təmir-bərpa ediblər. Hələ sən Naxçıvanımızda, Nuh Peyğəmbərin qəbirüstü abidəsini görəsən.

– Sözünə qüvvət, ay Ramin. Sibirdə, bizim yaşadığımız kənddə təzəsini tikməyə başladılar. Neçə ildir, hələ də bitməyib. Son vaxtlarda da tam dayanıb iş. Dedilər guya finansa görədir, yəni pul tapa bilmirlər... Yazıq uşaqlar, qəzalı binada dərs keçirlər. Hələ məktəbi qoyuram bir kənara...İşığın da, qazın da kəsilmədiyi gün olmur.

– Hə, demək, özün etiraf edirsən qaldığın yerlərin çətinliklərini. Unutma ki, sənin o vaxtlar yaşadığın Naxçıvan indi ayrı aləmdir... Ataların gözəl bir məsəli var: Yüz eşitməkdənsə, bir dəfə görmək yaxşıdır. Özün görəcəksən...

– İndi isə səninlə xudahafizləşməyin vaxtıdır, Kazım. Çünki o gördüyün kənd Eyvazlıdır.

– Necə?! Bəs o keçilməz, dərətəpə yollar hanı? Payız, qış aylarında çox vaxt bağlı qalırdı. Kənddən çıxmaq, kəndə gəlmək mümkün olmurdu.

– Çox düz buyurursan. O vaxtlar eləydi, bu gün isə, bax belədir. Görürsən, asfaltın üstü ilə kəndə şütüyürük. Kəndinizin astanasındayıq.

– Daha sözüm yoxdu. Bu, lap möcüzədir. Hələ o göylərə boy verən tikililər, üstləri rəngarəng örtüklü, yaraşıqlı evlər... Kənd necə də dəyişilib, İlahi! Heç inanmağım gəlmir bu işlərə... Ramin, buranı belə görəndə yenə yadıma qəribçilikdə yaşadığım yerlər düşür. Uzun illərdir ki, ordayam, heç daşı daş üstünə qoymayıblar. Mənim də 20 ilə dişimlə, dırnağımla tikdiyim ev sizin bu binaların yanında kiçik bir daxmanı andırır.

– Hə, əziz dostum, hələ çox heyrətlənəcəksən. Nə isə, Kazım, artıq mənzilbaşına yetişdik, bu da kəndinizin mərkəzi... Solumuzdakı ikimərtəbəli bina da kənd mərkəzidir. Nə qədər irili-xırdalı idarə və təşkilat var hamısı o binada fəaliyyət göstərir. Eyni gündə bir neçə idarəyə işin düşsə, daha ayrı-ayrı ünvanlara gedib özünü yormayacaqsan. Hər işi qısa vaxtda bir binada həll edəcəksən...

– Ramin, mən təslim, daha sözüm yoxdur. Naxçıvan barədə azdan-çoxdan eşitdiklərim, sən demə, yanlış deyilmiş.

– Kazım, mən səni başa düşürəm. Gör bir neçə illərdir bu yerlərdən uzaq düşmüsən. Özü də heç bir yaxınınla əlaqə yaratmamısan. Əslində, özündə də laqeydlik az olmayıb. Nə isə, artıq hər şey keçib. Bu mövzuda danışmağa dəyməz... İndi sən mənə de görüm evinizin yerini biləcəksən, ya yox?

– Haradan bilməliyəm?! O zaman gözümün alışdığı köhnə kənddən nə qalıb ki, tanıyım.

– Onda o cavan oğlanı çağırım, evinizin yerini xəbər al.

Sürücünün səsləməsi ilə oğlanın maşına sarı gəlməsi bir oldu.

Kazım:

– Ay oğul, Bəxtiyar kişinin evi hansıdır? Tanıdın? Qurbanov Bəxtiyar... Baytar Bəxtiyar da deyirlər ona.

– Niyə tanımıram ay əmi, oğlu Kərim müəllim bizə dərs deyir. Qızı Səmayə də müəllimədir.

Səbrini basa bilməyən Kazım qeyri-ixtiyari qürur hissi ilə ucadan səsləndi:

– Uzaqdır evləri?

– Xeyr, elə o marketin arxasındadır, gedək göstərim.

* * *

– Dadaş, (Kazım atasına belə müraciət edərdi) daha qala bilmərəm, gedəsi oldum. Günü sabah çıxmalıyam. Üç-dörd günün ərzində çox yerləri gəzib dolandım. Və xeyli düşünüb-daşındım. Qərarım qətidir.

– Ay bala, qurbanın olum, niyə belə tez? Od almağa gəlmişdin? Gücnən əlimizə düşmüsən. Buraxan deyilik. Hələ qal bir üzünü doyunca görək bari. Kənd adamları tanısın səni, – deyə anası atasını qabaqladı.

Bəxtiyar kişinin sifətinə kədər çökdü. O da üz-gözünü turşudub narazılığını gizlətmədi:

– Anan düz deyir, oğlum... Heç elə şey yoxdur. Gedə bilməzsən.

– Ay dadaş, ay ana, məni niyə bu qədər danlayırsız? Heç bilirsiz tez qayıtmağımın səbəbi nədir? Tez gedirəm ki, tez də işlərimi təhvil verib biryolluq qayıdım... indi aydın oldu?

Anası:

– Allah, min şükür, min şükür... Qayıt bala, qayıt. Qurban olaram gələn yollarına.

Atası bir qədər fikrə dalıb soruşdu:

– Elədirsə, onda bəs xozeyinin necə baxacaq bu işə? Buraxar səni? Axı, əslində, onun tapşırığını yerinə yetirməyə gəlmişdin. Nə cavab verəsən ona? Bir ətək pulunu qaytara biləssən?

– Ay mənim qəşəng dadaşım, özün də şahid oldun ki, kimlə danışdım, kimin ağzını aradımsa, imtina etdi getməkdən. Çoxunun da cavabı eyni oldu: Bizim o yerlərdə nə itimiz azıb? Cənnət kimi yurd-yuvamızı, iş-gücümüzü atıb niyə dağa-daşa düşək ki? Heç kim getmək istəmədi. Zorla aparmaq olmazdı ki. Mən də, əslində, çox başını qovmadım. Bildim ki, daha buralardan heç kim ayaq qoyub kənara çıxmaz. Hamısını nə təhər olub xozeyinimə danışacağam. Elə özümün Vətənə qayıtma səbəbini də gizləməyəcəyəm. Deyəcəyəm ki, elə bir inkişaflı, gözəl ölkəsi olan adam nəyə görə bu uzaq ellərdə canını çürütməlidir?! Bəd adam deyil xozeyinim... Çox ürəyi yumşaqdır. Məni doğru-dürüst anlayacaq. Dadaş, hələ xozeyinimi də gələndən sonra qonaq dəvət edəcəyəm Naxçıvana. Qalib öz gözləri ilə görsün buraları. O ki qaldı pula... hamısını aparıb qaytaracağam. Ordakı komamızı da əşyaları ilə bahəm nə qiymətə getsə, satacam. Çətinliyə düşmərik inşallah. Genə-boluna kifayət edər qayıtmağımıza. Hə, dadaş, söz verirəm ki, düz ikicə aya ailəmlə, nəvələrinizlə yanınızdayıq. Sözüm kişi sözüdür.

Sevincindən gözləri dolan Bəxtiyar kişi oğlunun doğma ata ocağına qayıdacağına inanırdı. Çünki anlamışdı ki, Naxçıvanda gördükləri onu, necə deyim, yerindən oynadıb, möhkəm silkələyib. İllah da yaşadıqları dağ kəndi Eyvazlı. Bir vaxtlar sakinlərini qaçıran, gözdən, könüldənuzaq düşən bu kənd artıq maqnit kimi hamını özünə çəkir. Hətta xarici turistləri də. Niyə də çəkməsin?! Geniş, asfalt yolları, tarixi guşələri, buz bulaqları, ürəyə məlhəm olan havası, üstəgəl sosial-inzibati binaları, gözoxşayan fərdi evləri, qonağı əziz-xələf edən insanları. Bir sözlə, hər şey adama gəl-gəl deyir.

Kazım da, sözsüz ki, gördüklərinə biganə qala bilməzdi. Həm də danışıb aparmaq istədiyi həmyerlilərinin getməkdən qətiyyətlə imtina etməsi, onu azdan-çoxdan düşündürməmiş deyil. İş, çörək qazanmaq məsələsi də buralarda, təbii ki, problem olmayacaq. Çalışana, zəhmət çəkənə minnət... Elə Eyvazlının özündə nə qədər əməyə bağlı ailə var ki, təkcə arı, yaxud mal-heyvan bəsləməklə dünyanın pulunu qazanır. Odur ee, Cəbi kişinin quşçuluq təsərrüfatı ətrafa səs salıb.

Bəxtiyar kişi bu kimi düşüncələrə daldıqca, qəlbi buz kimi rahatlayırdı ki, oğlu yalan ha demir. Mütləq qayıdasıdır.

...Və qayıtdı da.

Kazım verdiyi sözü tutdu. Budur, ata ocağında əsl çal-çağır, qələbəlikdir. Ahıl sinnində olan Bəxtiyar ata bu dönüşdən vəcdə gəlib hamının eşidəcəyi səslə dualar etdi. Ürəkdən qopan bu duaların hazırkı dövranı qurub-yaradanların ünvanına söyləyirdi.

– Amin, amin, dilinə qurban! Qoca ana da içindən qaynaqlanan bir duyğu ilə üzünü ömür-gün yoldaşına tərəf çevirdi.

**Fərəc FƏRƏCOV**


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 1021